# Avstriyanın "Vayner Akademiya" Kamera Orkestrinin konserti olub




İyulun 31-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Qəbələ VIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində Avstriyanın "Vayner Akademiya" Kamera Orkestrinin konserti keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Konqres Mərkəzində təşkil olunan konsert böyük tamaşaçı marağına səbəb olub. Konsertdə məlumat verilib ki, orkestr 1985-ci ildə Martin Heselbökün rəhbərliyi ilə yaradılıb. Orkestrin repertuarı çox geniş və rəngarəngdir. "Vayner Akademiya" Kamera Orkestri Jun-Tokusen və Due Disque Beynəlxalq Qran-pri mükafatlarını qazanıb.

Avstriyanın elm və incəsənətinə xidmətə görə "Şöhrət Xaçı", Praqada V.A.Motsart, Macarıstanda F.List mükafatlarına layiq görülmüş dünya şöhrətli dirijor Martin Heselbökün rəhbərlik etdiyi konsertdə Avstriya və İtaliya bəstəkarlarının əsərləri səsləndirilib. Yerli və xarici tamaşaçılar qarşısında Avstriyanın tanınmış musiqiçiləri - Markus Hoffman (violin), Anna-Mariya Smerd (violin), Volfram Fortin (viola), Martin Hasselbuk (orqan), Pavel Serbin (cello), Valter Bakunig (basso), Maykl Oman (blokfleyta) Avropa bəstəkarlarının klassik əsərlərini gözəl ifa etməklə onlara unudulmaz anlar yaşadıblar.